# Kredo

TARİXİ İNSANIN ƏQLİ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimaisiyasi, publisistik qəzet №61-62 (1239-1240) 17 oktyabr 2024-cü il Qiymәti 1 manat

Qəzet 1999cu ilin oktyabrından çıxır

Azərbaycan milli kitabxanası

# İSA HƏBİBBƏYLİ - 75

# RUHUN EPOS GÜCÜ

## Sözün və özün birliyində

İsa Həbibbəylinin 75 yaşı tamam olur. Mənə elə gəlir ki, yaradıcı adamların yaşam yolunu konkret rəqəmlərlə ifadə etmək mümkün deyil. Çünki yaradıcı adam cəmiyyətin gözünün qabağındakı, ictimai mühitdəki həyatından kənar, ayrıca bir ömür də yaşayır. Bu da yaradıcılıq ömrüdür. Əgər yaradıcı adamın hər kitabını da ayrıca bir ömür mərhələsi kimi qəbul etsək, onda elə İsa Həbibbəylinin də 75 illik ömür yolunun anlamı rəqəm baxımından dəyişməlidir.

Hərdən ağlıma gəlir ki, qəzetin birinci üzündə təqdim etdiyim obraz-portretin təkcə şəklini verim və seçdiyim, düşüncəmdə obrazı xarakterizə edən başlıqları iri şriftlərlə aydınlaşdırıcı mətn kimi göstərim: Yəni "İsa Həbibbəyli - 75", "Ruhun epos gücü", "Sözün və özün birliyində"... Daha burada izah eləməli, mətnə aydınlıq gətirməli nə qalır ki?! Əlbəttə, düşüncəli, sözümüzə səmimi yanaşan, şəkkaklıqdan kənar oxucu üçün hər şey bütün aydınlığı ilə görünür.

Açığı, İsa Həbibbəylinin ədəbi-elmi fəaliyyətini xarakterizə edən yazılar mətbuatda ardıcıl olaraq dərc olunur (çox təəssüf ki, İsa Həbibbəyli son vaxtlar yeni kitablarını mənə göndərmir). Bu da onu göstərir ki, o, ədəbi-elmi düşüncənin kifayət qədər mərkəzində dayana bilir. Ən başlıcası, tutarlı elmi yaradıcılığı ilə ən mübahisəli məsələlərdə gücünü göstərə biləcək dayanaqlıq obrazı olduğunu təsdiq edir.

Cəmiyyətdə sağlam düşüncə istiqaməti ilə yanaşı, deyərdim ki, bir xəstə təmayül də yol gedir. Kiminsə qərəzli yanaşma mövqeyindən gördüyü şəxsin haqqında rəğbətli düşüncə ilə münasibətini bildirəndə yer-yerdən ucuz tənqidlər (bəlkə də təhqirlər) baş qaldırır. Amma bunların bizim əqidə və amalımıza sarsıdıcı heç bir təsiri ola bilməz. İsa Həbibbəyli Azərbaycan xalqının çox böyük ziyalısıdır.

İsa Həbibbəylinin zəngin yaradıcılığı ilə kifayət qədər tanışam. Əvvəllər Naxçıvanda olanda bizim "Kredo"nun çox nüfuzlu müəlliflərindən idi.



İsa Həbibbəylinin elmi yaradıcılığında bir çox yeniliklər, xüsusilə mənim təqdir etdiyim elə məsələlər var ki, bu istiqamətdə onun tədqiqatları elmi düşüncəmizi kifayət qədər yeniləmək gücündədir. O, yazılı dilimizi Dədə Qorqud eposundan başlayır. Bir sözlə, o, "Dədə Qorqud" eposunu yazılı abidə hesab edir. Düşünürəm ki, bu çox doğru məntiqdir. Elə bu düşüncənin özü Azərbaycan türklərinin tarixi taleyinə münasibətdə düşmən dəyirmanının suyunu kəsmək deməkdir. Yaxud, Füzuli və Axundov arasındakı mərhələdə "Vaqif" poemasının dil baxımından dəyərləndirməsi, həmçinin, ədəbi dilimizin canlı dilimizə yaxınlaşdırılması baxımından da tədqiqatları əvəzsizdir.

Bir sözlə, "Dədə Qorqud: epos və epopeya" əsəri, ardıcıl digər tədqiqatları onun ruhunun epos gücünü təsdiq edən yaradıcılıq örnəkləridir.

İsa Həbibbəyli birmənalı şəkildə qərəzsiz adamdır. Hətta onu ən ağır şəkildə tənqid edənlərə qarşı da təmkinli münasibət sərgiləməsi ziyalı qəlbinin genişliyini göstərən cəhətdir.

İsa Həbibbəyli daim hərəkətdə olan ziyalıdır. Ədəbiyyatı ardıcıl olaraq izləyir. Hətta ədəbi mövqedə də müxalifliyin üstün tərəflərini birmənalı şəkildə göstərir və təqdir edir. Bu da onun ziyalı bütövlüyünün göstəricisidir.

İsa Həbibbəyli humanist ziyalıdır. Onun sözü özü ilə birlikdədir. Bilərəkdən burada "vəhdətdə" ifadəsini işlətmədim. Ardıcıl olaraq daşlaşmış elmi-ədəbi düşüncəyə yeniləşmə stimulu verir. Bu məsələlərin hər birini şərh etmək ayrıca mövzudur və bu bizim imkanımız xaricindədir.

75 illik ömür yolu... bu, cismani ömür göstəricisidir. Yaşamın konkret rəqəmdə görünən tərəfidir. Çoxcildlik yaradıcılığa sərf olunan tale yolu, zənnimcə, heç bir rəqəmə sığmır.

Akademik İsa Həbibbəylidə bir cəhəti də müşahidə etmişəm; o, hər cür rəsmiyyətdən kənar ünsiyyət ustadıdır. Ona doğru gələn hər kəsi təbiətindən gələn səmimiyyətlə qəbul etməyə hazırdır. Zənnimcə, insanlığın akademik göstəricisi elə budur.

Sözün və özün birliyində mən ruhun epos gücü kimi İsa Həbibbəylini belə görürəm.

*Əli Rza XƏLƏFLİ*
*16.10.2024*